# Göyərçin

№1 2000

ISSN-0207-4710





## RAFİQ YUSİFOĞLU — 50

Əziz balalar, "Göyərçin" jurnalının baş redaktoru, filologiya elmləri namizədi, şair Rafiq Yusifoğlu "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı çığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" adlı şe'r, "Bahar qatarı" adlı nəsr, "Xatirə kəcavəsi" adlı publisistika, "Kitabi-Dədə Qorqud" adlı komikslər kitabının, "Azərbaycan poeması: axtarışlar, perspektivlər" adlı elmi monoqrafiyanın müəllifidir. Sevimli şairimizi anadan olmasının 50 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona can sağlığı, bədii, elmi yaradıcılığında yeni-yeni uğurlar diləyirik.

"Göyərçin" jurnalının yaradıcı kollektivi.



*Rafiq YUSİFOĞLU*

### BU ŞƏHƏRƏ GƏLƏN QATAR

Bu şəhərin qoynunda
Yetdik arzu-murada.
Bu şəhər bir dənizdi,
Hər dalğası bir adam.

Hər ləpə bir bulağın,
Kəndin əziz payıdı.
Bura gələn hər qatar
Sanki bir dağ çayıdı.

Dənizə töküldükcə
Bu çaylar şahə qalxır.
Dəryanın damarında
Çeşmənin qanı axır.

Rəssam *İlqar TOFİQOĞLU*

### UŞAQ

Körpələri incidəndə
Xeyir-şər qarışıq düşür.
Uşaq görəndə adamın
Çöhrəsinə işıq düşür.

Ağacların budağında
Açılan çiçək-körpədi.
Köksümüzdə gecə-gündüz
Döyünən ürək-körpədi.

Cocuq-sevginin bəhrəsi,
Cocuq-həyatın duzudu.
Cocuq-yolumuz üstündə
Parlayan dan ulduzudu.

Ömrümüzü, günümüzü
Uşaq təbəssümü bəzər.
Uşaqsız ev, uşaqsız el
Susuz dəyirmana bənzər.

### BÖYÜK ARZUYA GEDƏN YOL

Görəcəyim adi işlər
Məni səsləyər, haraylar.
Xırda kərpiclər olmasa,
Ucalmaz böyük saraylar.

Çeşmələrin duruluğu
Dağdan keçər, daşdan keçər
Böyük arzuya gedən yol
Kiçik-kiçik işdən keçər...



### SÖZ OVU

Hey gedirəm, gedirəm,
Bir yorulmaz yolçuyam.
Ov qaçır, mən qovuram,
Söz ovdur, mən ovçuyam.

Makinam işlədikcə
Sanki dinclik tapıram.
Düşüb sözün dalınca
Elə bil at çapıram.

Yol gedirəm, sözlərə
Hey güllə ata-ata.
Mənim yazı makinam
Bənzəyir avtomata...

### SƏS ŞLAQBAUMU

Sanki asma körpüdü
Telefonun dəstəyi.
Səslər onun üstündən
Hara keçmək istəyir?
Yox, o, şlaqbaumdu,
Yolbağlayandı, Püstə.
Dayanır gecə-gündüz
Səsin yolunun üstə.
Zəng çalınır dalbadal,
Götür dəstəyi, tələs.
Şlaqbaum qalxmasa,
Səs keçib gələ bilməz...

### ADAM KİÇİK OLANDA

Həyat boyu qayğılar
Çiynimizdə yük olur.
Adam kiçik olanda
Arzusu böyük olur.

Qızılı şimşəklərdən
Qamçı hörmək istəyir.
Ulduzları gül kimi
Bir-bir dərmək istəyir.

Həyatın sərt üzünü
Görüb çaşır adamlar.
Böyüdükcə torpağa
Yaxınlaşır adamlar.

### ELƏ BİL SİMDİ

Elə bil simdi bu cığır,
"Çalmasan" qovrula bilər.
Ayaq mizrablar dəyməsə,
Paslanıb qırıla bilər.

### AY BULAĞA GEDƏN CIĞIR

Ay bulağa gedən cığır,
Ətə-qana dolacaqsan.
Getdiyin yer gözəldisə,
Böyüyüb yol olacaqsan.

### TƏƏCCÜB

Heç belə də şey olar,
Bu işə qalmışam mat?-
Buz tək soyuq su içdim,
İstim qalxdı o saat.

### YEDDİNCİYƏ KEÇƏN ÇANTA

Qardaşım çantamızı
Bu gün dəyişik salıb.
Açanda kitabları
Duruxub, çaşıb qalıb.
Gülüşüblər,
deyiblər:
Daha iş-işdən keçib.
Qardaşımın çantası
Dördüncüdən birbaşa
Yeddinci sinfə keçib.